


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

11 may 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 18 (3632)

## Prezident xalqa müraciət edib

***Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Şuşadan Azərbaycan xalqına müraciət edib. Diqqət çəkən məqamlardan biri dövlət başçısının müraciətini Şuşanın azad edilməsi ilə bağlı xəbərin ona məruzə edildiyi inzibati binanın qarşısından etməsi olub.***

***Ali Baş Komandan Şuşanın azad edilməsi ilə bağlı bildirib ki, 2020-ci il 8 noyabr tarixdə əbədi qalacaq: "O gün mənə, bax, bu meydandan Şuşanın azadlığı ilə bağlı hərbi raport veriləndən, bu binanın üstünə Bayrağımız qaldırılandan sonra atamın məzarını ziyarət etdim və ürəyimdə dedim ki, "Tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev!". Ondan sonra Şəhidlər xiyabanını ziyarət etdim, şəhidlərimizin ruhu qarşısında baş əydim, ürəyimdə dedim ki, qanınız yerdə qalmadı".***

# ŞUŞADAKI ATATÜRK KÜÇƏSİNDƏN ZƏNGƏZURA



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 8-də Şuşaya səfər ediblər.

Səfər zamanı dövlətimizin başçısı və birinci xanım Əhmədbəyli-Füzuli-Şuşa magistral avtomobil yolunun 66-81-ci kilometrliyində görülən işlərlə tanış olublar.

Bildirilib ki, başlanğıcını M6 Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə işğaldan azad edilən Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarını birləşdirən 81,7 kilometr uzunluğundakı Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 66-81-ci kilometrliyində işlərin 85 faizi başa çatıb. Uzunluğu 15,72 kilometr olan bu hissədə yolun hərəkət sahəsinin eni 10,75 metr, torpaq yatağının eni isə 21,5 metrdir.

Layihəyə əsasən, yolun bu hissəsində 5 viadukun (dərə üzərində körpü), 6 tunelin və bir körpünün tikintisi üzrə əsas işlər yekunlaşıb. Viadukların tikintisi zamanı Azərbaycanda ilk dəfə olaraq aşırım qəliblərin üfüqi sürüşdürülməsi üsulu ilə betonlama işləri yerinə yetirilib. Yolun bu hissəsində suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif ölçülü 15 dairəvi suötürücü boru, 24 düzbucaqlı su keçidi, 4 alt keçid və bir neçə ehtiyat keçid inşa edilib.

Elə həmin gün ölkə başçımız və xanımı Daşaltı kəndində Zarıslıçay nasos stansiyasının açılışında iştirak ediblər.

Qeyd edək ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu tərəfindən 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad edildikdən qısa müddət sonra şəhərin içməli su təminatının bərpasına başlanılıb. Təxirəsalınmaz Tədbirlər Proqramına uyğun olaraq, Kiçik Kirs mənbəyinin və Kiçik Kirs-Şuşa magistral su kəmərinin qəzalı hissələri qısa müddətdə təmir olunub və 2020-ci il noyabrın 25-də Şuşa şəhərinə suyun verilişi bərpa edilib. Eyni zamanda, Şuşa şəhərinin digər mənbəyi - Zarıslı sugötürücü qurğusunun, uzunluğu 14,3 kilometr olan Zarıslı-Şuşa magistral su kəmərinin qəzalı hissələrinin bərpasına başlanılıb və 2020-ci il dekabrın 20-də bu mənbədən şəhərə suyun verilməsi təmin edilib.

Mayın 9-da Prezident İlham Əliyev "Azərişıq" ASC-nin Şuşa Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzinin və Atatürk küçəsinin lövhəsinin, Qarabağ küçəsində inşa olunacaq qeyri-yaşayış massivinin, Molla Pənah Vaqif və Pənahəli xan küçələrinin kəsişməsində lövhələrin açılışlarında iştirak edib.

Elə həmin gün ölkə başçımız Cıdır düzündə Mir Möhsün Nəvvab Qarabağinin Heydər Əliyev Fondu tərəfindən bərpa olunan məzarını ziyarət edib.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Mehmandarovların malikanə kompleksinin açılışında iştirak ediblər.

# Daxili İşlər Nazirliyində ulu öndərə həsr olunan tədbir keçirilib






Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasətçi Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibəti ilə mayın 6-da Daxili İşlər Nazirliyinin rəhbər heyəti, əməkdaşları və hərbi qulluqçuları Fəxri Xiyabana gələrək ulu öndərin abidəsi önünə çiçək dəstələri düzüblər. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla yad edilib.

Sonra Nazirlikdə ümummilli liderin yubileyinə həsr olunmuş tədbir keçirilib.

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov tədbiri giriş sözü ilə açaraq ulu öndər Heydər Əliyevin yeni Azərbaycanın qurulmasında, onun müstəqilliyinin, iqtisadi-siyasi əsaslarının möhkəmləndirilməsində, ölkəmizin beynəlxalq birliyin tam və bərabərhüquqlu üzvünə çevrilməsində, demokratik imicinin yüksəldilməsində, ümumən dövlətçilik tarixində müstəsna xidmətləri barədə ətraflı qeyd edib, daxili işlər orqanlarının formalaşmasında və inkişafında rolunu, şəxsi heyətə diqqət və qayğısını vurğulayıb.



Tədbir iştirakçıları qarşısında Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun şöbə müdiri, tarix üzrə elmlər doktoru, professor Ədalət Qasımov "Azərbaycan xalqının tarixi taleyində Heydər Əliyev fenomeni" mövzusunda əhatəli çıxış edib.

Tədbirdə ümummilli liderin zəngin həyat yolundan və fəaliyyətindən bəhs edən «Heydər Əliyev və 44 günlük Zəfər Yolu» sənədli filmi nümayiş olunub.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə elan olunmuş "Heydər Əliyev İli" çərçivəsində silsilə tədbirlər Nazirliyin Polis Akademiyasında, Ali Hərbi Məktəbində, Əlahiddə Çevik Polis Alayında, Bakı şəhər Baş Polis İdarəsində, ərazi polis orqanlarında və hərbi hissələrində də keçirilib, həmçinin konfranslar, intellektual yarışlar, idman turnirləri, müsabiqələr, ağacəkmə aksiyaları təşkil edilib.

# YÜZ İLİN SALNAMƏSİ

## Polis idarələrində ulu öndərin yubileyi qeyd olunur

Ümummilli lider Heydər Əliyevin 100-cü ildönümünə həsr olunan tədbirlər çərçivəsində **Nəsimi Rayon Polis İdarəsində** ulu öndərin xatirəsi anılıb.

Tədbir ulu öndərin, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.






Sonra çıxış edən **İdarə rəisi, polis polkovniki Mirnemət Mirbabayev** dahi şəxsiyyətin müasir, müstəqil Azərbaycanın qurulmasında müqayisəyəgəlməz siyasi fəaliyyətindən, daxili işlər orqanlarının yenidən formalaşdırılmasındakı xidmətlərindən danışıb. Müstəqilliyin ilk illərində başlayan Birinci Qarabağ müharibəsinin ağır nəticələrinin, ölkə daxilində isə vətəndaş qarşıdurmasının yaşandığı bir şəraitdə xalqımızın yeganə ümid yerinin yüksək idarəçilik keyfiyyətlərinə, geniş siyasi dünyagörüşünə malik liderin məhz Heydər Əliyev olduğunu vurğulayan M.Mirbabayev ilk növbədə ölkədə qanunçuluğun və hüquq qaydasının möhkəmləndirildiyini xatırladıb. O, qeyd edib ki, ümummilli liderin apardığı hüquqi islahatlar mütəşəkkil cinayətkarlıqla mübarizədə uğurlara təkan verdi, qısa müddətdə cinayətkarlığın dinamikasında müsbət təmayüllər müşahidə olundu.





Daha sonra çıxış edən Yeni Azərbaycan Partiyasının Nəsimi Rayon Təşkilatının sədri Azər Süleymanov ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycanın hərtərəfli inkişafına, qüdrətlənməsinə öz töhfəsini verərək, uzaqgörənliklə inkişaf strategiyası müəyyən etdiyini bildirib. Ümummilli liderin müasir Azərbaycan dövlətinin əbədiyaşar memarı olduğunu qeyd edən məruzəçi ölkəmizin hərtərəfli tərəqqisinin təməlində ulu öndərin müəyyənləşdirdiyi daxili və xarici siyasətin dayandığını, bu siyasi kursun Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilərək yeni-yeni nailiyyətlər əldə edildiyini vurğulayıb.

Ulu öndərin yubileyi münasibəti ilə **Səbail Rayon Polis İdarəsində** keçirilən tədbiri **İdarə rəisi, polis polkovniki Hikmət Qasımov** giriş sözü ilə açıb. Əvvəlcə ümummilli lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi sükutla anılıb, Dövlət Himni ifa edilib.

Çıxışına Azərbaycanın müstəqilliyinin ilk illərində üzləşdiyi çətinlikləri xatırlatmaqla başlayan polis polkovniki H.Qasımov ölkəmizin ulu öndərin hakimiyyətə qayıdışı ilə qurtulmasına diqqət çəkib, iqtisadi inkişafın, sosial rifahın və hüquqi islahatların əsasının qoyulmasının məhz o böyük şəxsiyyətin adı ilə bağlı olduğunu deyib.

İdarə rəisi xüsusilə qeyd edib ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1993-2003-cü illərdə ictimai-siyasi sabitlik və təhlükəsizlik, vətəndaş məmnunluğu və sosial ədalət təmin edilib, müasir, hüquqi və demokratik dövlət quruculuğu uğurla həyata keçirilib, dayanıqlı iqtisadi inkişafa, nizamlı ordu quruculuğuna nail olunub, xalq-iqtidar birliyi gücləndirilib, Azərbaycan dünyada etibarlı tərəfdaşa çevrilib. Bu səbəbdən ulu öndərin adı dövlətçilik tariximizə sabitlik, rifah, yüksəliş və intibah anlayışları ilə birlikdə qızıl hərflərlə yazılıb.





Tədbirə qonaq qismində dəvət edilən Polis Akademiyasının kafedra rəisi, polis polkovnik-leytenantı Rəhim Məcnunov gənclərin əsl Azərbaycan vətəndaşı kimi formalaşmasında ümummilli lider Heydər Əliyevin danılmaz əməyindən, misilsiz xidmətlərindən bəhs edib. Ulu öndərin fəaliyyətində gənclərə hər zaman xüsusi yer ayırdığını deyən natiq keçən əsrin 70-80-ci illərində azərbaycanlı gənclərin müdrik rəhbərin göstərişi ilə aparıcı ali məktəblərdə, müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərildiyini bildirib. Məhz həmin gənclər sonradan ali təhsilli mütəxəssis kimi ölkəmizin müxtəlif sahələrində bacarıqlı kadr kimi fəaliyyətə başlayıblar.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə **Yasamal Rayon Polis İdarəsində** keçirilən tədbirdə **RPİ-nin rəisi, polis polkovniki Cəmil Əmirov,** Bakı Dövlət Universitetinin tarix fakültəsinin dekanı, tarix elmləri doktoru, professor İbrahim Zeynalov, polis veteranları və şəxsi heyət iştirak edib.

Mərasim ulu öndər Heydər Əliyevin, respublikanın ərazi bütövlüyü uğrunda şəhid olanların, eləcə də xidməti tapşırıqları yerinə yetirərkən həlak olmuş həmkarlarımızın əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb, Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan İdarə rəisi Cəmil Əmirov bütün dünya azərbaycanlılarının, eyni zamanda türk dilli xalqların müstəqil Azərbaycan Respublikasının yaradıcısı və memarı, XX əsr milli tariximizin ən qüdrətli siması olan görkəmli siyasi, eləcə də dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100-cü ilini böyük sevinclə qeyd etdiyini bildirib. O da vurğulanıb ki, təməllərini ulu öndərin atdığı ölkəmizdəki sabitliyin təminatçısı və qarantı bu gün də Azərbaycan Polisidir.

Professor İ.Zeynalov ümummilli liderin mənalı və zəngin həyat yolundan, çoxşaxəli işgüzar fəaliyyətindən danışıb. Ulu öndər Heydər Əliyevin Azərbaycan tarixinin bütün səhifələrini dərindən bilən, onu qiymətləndirməyi bacaran, tarixi öyrənib yeni tarix yaradan böyük siyasi xadim olduğunu deyən tarix elmləri doktoru məhz onun siyasi hakimiyyətə qayıdışı ilə milli təfəkkürün, şüurun oyandığını və milli azadlıq hərəkatının başlanıldığını söyləyib. Məruzəçi, sözün əsl mənasında, "Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram",-deyib meydana atılan böyük ürəkli Vətən oğlunun xalq, Vətən qarşısındakı fədakar xidmətləri sayəsində müstəqilliyimizin dönməz, əbədi və daimi olduğunu vurğulayıb.

Sonda ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən film nümayiş olunub.

Ulu öndərin yubileyi münasibətilə **Nərimanov Rayon Polis İdarəsində** də tədbir keçirilib. Ümummilli liderin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad ediləndən sonra tədbir açıq elan olunub.

**RPİ-nin rəisi vəzifəsini müvəqqəti icra edən, polis polkovniki Arzu Heydərov** dövlətçilik ənənələrinin formalaşdırılmasında, Azərbaycançılıq məfkurəsinin inkişaf etdirilməsində ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətlərindən danışıb. Bildirilib ki, müasir Azərbaycan tarixinin parlaq səhifələri Heydər Əliyevin adı ilə, onun irimiqyaslı və çoxşaxəli dövlətçilik fəaliyyəti ilə bağlıdır.

Məruzə ilə çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının Qafqazşünaslıq İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru, professor Qasım Hacıyev ulu öndərin müasir Azərbaycan tarixini yazan şəxsiyyət olduğunu, mənalı həyatının hər gününün, hər anının unudulmaz tarix kimi zaman-zaman xatırlanacağını bildirib. Qeyd edib ki, Heydər Əliyevin fəaliyyətinin 1993-2003-cü illəri də bir ömrün qızıl salnaməsidir. Azərbaycanı daimi müstəqil, azad, demokratik ölkə kimi görmək istəyən dahi şəxsiyyət öz məqsədlərini uğurla həyata keçirmək üçün tarixə silinməz səhifələr yazdı.

Digər çıxışçılar da ulu öndərin hakimiyyətə gəlişindən sonra Azərbaycanın böyük quruculuq və yaradıcılıq mərhələsinə, həyatın bütün sahələrində sürətli inkişaf və tərəqqi yoluna qədəm qoyduğunu vurğulayıblar.

# İllərin sınağından keçənlər




Daxili işlər orqanlarında xidmət etmiş İkinci Dünya Müharibəsinin iştirakçıları ziyarət edilib.

DİN Şəxsi Heyətlə İş İdarəsinin şöbə rəisi, polis polkovnik-leytenantı Firdovsi Nəsirov və xüsusilə mühüm tapşırıqlar üzrə baş inspektor, polis polkovnik-leytenantı Tural Qəniyev müharibə veteranlarına evlərində baş çəkiblər.

Faşizm üzərində qələbənin 78-ci ildönümü münasibətilə DİN rəhbərliyinin təbriklərini Səfər Abdullayev və Əzim İbrahimova çatdıran polis əməkdaşları gənc əməkdaşların milli vətənpərvərlik ruhunda tərbiyə olunmasında, onlara xidmətə, dövlətçiliyə sədaqət hisslərinin aşılanmasında veteranlarımızın örnək olduqlarını bildiriblər.

Müharibə veteranları həyatlarında dərin iz qoymuş keçdikləri döyüş yolları və daxili işlər orqanlarında xidmət etdikləri illərlə bağlı xatirələrini bölüşüblər, eyni zamanda, onlara göstərilən yüksək diqqət və qayğıya, maddi-mənəvi dəstəyə görə Daxili İşlər Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# XALQA BAĞIŞLANAN ÖNDƏR ÖMRÜ



Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Astara, Ucar, Biləsuvar, Sabirabad, Cəlilabad rayon və Şirvan şəhər Polis şöbələri tərəfindən silsilə tədbirlər keçirilib.

Tədbirlərdə əvvəlcə ümummilli liderin abidəsi ziyarət olunub, önünə tər güllər düzülüb.




Polis şöbələrinin inzibati binalarında davam edən anım mərasimlərində dahi şəxsiyyət, dünya miqyaslı siyasətçi Heydər Əliyevin şərəfli və mənalı ömür yolu, müstəqil dövlətimizin inkişafı, eyni zamanda Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətləri xatırlanıb. Bildirilib ki, məhz ulu öndərin həyata keçirdiyi uzaqgörən siyasət nəticəsində dövlətimiz yüksək templə inkişaf edərək böyük layihələrin icrasında yaxından iştirak etmiş, dünya miqyaslı tədbirlərin təşkilatçısı olmuşdur. Müasir Azərbaycanın mürəkkəb və taleyüklü dövründə dövlətə rəhbərliyi öz üzərinə götürən ümummilli liderin xilaskarlıq və quruculuq missiyasını şərəflə yerinə yetirməklə nəinki xalqımızın ən parlaq siması, eləcə də dünya siyasi elitasının görkəmli şəxsiyyətlərindən biri kimi tarixdə silinməz iz qoyduğu da diqqətə çatdırılıb.







# GÜCLÜLƏR qalib gəlib

DİN İdman Cəmiyyətinin təşkilatçılığı ilə Baş Mühafizə İdarəsinin hissələri arasında ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş silahsız özünümüdafiə və əlbəyaxa döyüş üzrə turnir keçirilib.

Baş İdarənin idman zalında yekunlaşan yarışda 14 komanda, hər komandada 1 nümayəndə və 6 idmançı olmaqla ümumilikdə 84 əməkdaş iştirak edib.

Ümummilli lider Heydər Əliyevin, respublikanın ərazi bütövlüyü uğrunda şəhid olanların, eləcə də xidməti tapşırıqları yerinə yetirərkən həlak olmuş həmkarlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirildikdən sonra yarış açıq elan olunub.

**Çıxış edən Baş İdarə rəisi, polis general-mayoru Nurullah Məmmədxanlı** iştirakçılara turnirin daxili işlər orqanları əməkdaşlarının döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi, silahsız özünümüdafiə və əlbəyaxa döyüş bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədi daşıdığını bildirib və idmançılara uğurlar arzulayıb.

Əməkdaşlar ilk olaraq 4 sualı cavablandırıb. İlk mərhələni məharətlə keçən 31 idmançı növbəti tura vəsiqə əldə edib. Gərgin idman mübarizəsi şəraitində keçən turnirin 67, 73, 80, 88, 97 və +97 kiloqram çəki dərəcələrinin ən güclü üçlüyü müəyyənləşib.

Baş İdarə rəisi qaliblərə medal, diplom və qiymətli hədiyyələri təqdim edib.

Qeyd edək ki, İdman Cəmiyyətinin idman təşkili bölməsinin baş inspektoru, polis polkovnik-leytenantı, Əməkdar məşqçi Aydın Həşimov yarışın baş hakimi olub.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Məktəbin qalibləri mükafatlandırıldı



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə DİN-in A.Heydərov adına Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəbin daimi və dəyişkən heyəti arasında "güllə atıcılığı", "bilik və çoxnövçülük" üzrə şəxsi birincilik yarışı keçirilib.

Əvvəlcə ulu öndər Heydər Əliyevin, Vətənimizin azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Sonra yarışa start verilib. Sərrast atıcıların, biliyinə güvənənlərin və güclülərin mübarizəsində məktəbin daimi heyətindən 6, dəyişkən heyətindən də 6 nəfər qalib gələrək pul və digər qiymətli hədiyyələrlə mükafatlandırılar.

*"Polis"*

# DİN İdman Cəmiyyətinin növbəti uğuru

Bu günlərdə Müdafiə Nazirliyi, Milli Məclisin Gənclər və idman komitəsi və Azərbaycan Kikboksinq Federasiyasının birgə təşkilatçılığı ilə Heydər Əliyev adına Hərbi İnstitutun stadionunda ulu öndərin 100 illiyinə həsr olunmuş kikboksinq üzrə "Heydər Əliyev Kuboku" yarışlarına start verilib.

Turnirdə paytaxtda və bölgələrdə fəaliyyət göstərən, 40-dan çox klubu təmsil edən 600-dən çox idmançı gücünü sınayıb.



Kubok uğrunda mübarizə aparan Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin yetirmələri ümumilikdə 55, onlardan 25 qızıl, 14 gümüş, 16 bürünc medal qazanaraq Komanda Kubokunu əldə edib.

İdman tədbiri ilə bağlı qəzetimizə məlumat verən **BMİ-nin Azərbaycan Televiziyası və Radio verilişləri QSC-nin mühafizəsi üzrə mühafizə şöbəsinin əməkdaşı, polis baş serjantı Hikmət Hacıyev** ölkənin ən güclü idmançılarının iştirak etdiyi yarışda kimin qalib gəlməsindən asılı olmayaraq, bunun Azərbaycan idmanının uğuru olduğunu, gənclərin savadlı, güclü və vətənpərvər yetişməsi üçün ulu öndər tərəfindən əsası qoyulan idman siyasətinin ölkəmizə həm yerli, həm də beynəlxalq yarışlarda bundan sonra da qalibiyyət bəxş edəcəyini bildirib.

*"Polis"*

# Kursantlarımız fərqlənib



Azərbaycan Respublikası "Elm və Təhsil Nazirliyi" və "Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı" tərəfindən 25 ali təhsil müəssisəsinin tələbələri arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş bədii yaradıcılıq müsabiqə-festifalı keçirilib.

Heydər Əliyev Sarayındakı yekun konsertdə **Polis Akademiyasının I kurs kursantı Murad Bayramov, III kurs kursantı Manaf Gülmalıyev saz, bədii qiraət nominasiyası üzrə III kurs kursantı Səyyad Əliyev və IV kurs kursantı Rəhim Rəhimli** çıxış ediblər.

*R.Vəliyev*

# "ASAN xidmət" mərkəzlərində Daxili İşlər Nazirliyinin göstərdiyi xidmətlər üzrə vakant kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə

Daxili İşlər Nazirliyi Salyan, Masallı, Quba, İmişli, Kürdəmir, Şamaxı, Tovuz və Ağcabədi "ASAN xidmət" mərkəzlərində Daxili İşlər Nazirliyinin göstərdiyi xidmətlər üzrə vakant kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrini bitirmiş, yaşı 25-dən 30-dək, boyu 160 santimetrdən yuxarı olan, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən, Salyan, Masallı, Quba, İmişli, Kürdəmir, Şamaxı, Tovuz və Ağcabədi rayonlarında yaşayış yeri üzrə daimi qeydiyyatda olan və yaşayan Azərbaycan Respublikasının qadın cinsli vətəndaşları iştirak edə bilərlər.

Müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, fiziki hazırlıqları və bilik səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılaraq, kompüterdə işləmək bacarıqları olan, məsuliyyətli, diqqətli, ən azı xarici dillərdən birini sərbəst bilən və ailəli şəxslərə üstünlük veriləcəkdir.

Müsabiqə qaliblərinə Azərbaycan Respublikası DİN-in kadrları tərkibinə daxil edilərək müvafiq xüsusi rütbə veriləcək və qanunvericiliklə müəyyən olunmuş qaydada onların daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaqdır.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2023-cü ilin may ayının 1-dən 31-dək Daxili İşlər Nazirliyinin internet saytında **/www.mia.gov.az/** yerləşdirilmiş ərizə formasını və anket məlumatlarını şəxsən dolduraraq elektron poçt vasitəsilə DİN-in Baş Kadrlar İdarəsinin **bki@mia.gov.az** elektron ünvanına göndərməlidirlər.

Müraciət etmiş şəxslər müsabiqədə iştirak etmək üçün dəvət edilərkən aşağıdakı sənədləri təqdim etməlidirlər:

- ***Şəxsiyyət vəsiqəsi;***
- ***Ali təhsil haqqında diplom;***
- ***Əmək kitabçası (olanlar üçün);***

**Əlavə məlumat üçün əlaqə telefonları:**
**şəhər: (012) 590-80-63, (012) 590-80-93**
**daxili: 80-63, 80-93**






# İDMAN XRONİKASI

## Karateçimiz Avropa çempionu oldu



Bu günlərdə Bolqarıstanın Kranevo şəhərində idmanın karate WSF növü üzrə 13-cü Avropa çempionatı keçirilib.

Yarışa 22 ölkədən 992 nəfər idmançı qatılıb.

Milli komandanın tərkibində DİN-in İdman Cəmiyyətinin yetirməsi Suada Kərimova 55 kiloqram çəki dərəcəsində ilk görüşündə qardaş Türkiyə idmançısına qalib gələrək, yarımfinalda çexiyalı rəqibinə də şans verməyib. İdmançımız finalda Rumıniya təmsilçisini məğlub edərək Avropa çempionu adını qazanıb.

Qeyd edək ki, təmsilçimizi yarışa DİN İdman Cəmiyyətinin fiziki hazırlıq şöbəsinin rəisi, polis polkovnik-leytenantı Elnur Həsənov hazırlayıb.

## Bakıda atıcılıq üzrə dünya çempionatı keçiriləcək



Çempionatla bağlı təşkil olunan tədbirin qonaqları gənclər və idman naziri Fərid Qayıbov, nazir müavini Mariana Vasileva, Azərbaycan Atıcılıq Federasiyasının baş katibi Emin Cəfərov və digər rəsmi şəxslər olub.

Ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Z.Meftahətdinova mötəbər yarışlarda Azərbaycanın qazandığı medallara görə 71 ölkə arasında 39-cu pillədə qərarlaşdığını və hazırda yığma komandamızın aktivində 5 medal olduğunu bildirib.

Tədbirdə dünya çempionatının gümüş mükafatçısı, ikiqat Avropa çempionu, "Paris 2024" Yay Olimpiya Oyunlarına ölkəmizdə ilk və hələlik tək lisenziya qazanmış Ruslan Lunyov, dünya çempionatının bürünc mükafatçısı Nigar Nəsirova, İslam Həmrəyliyi Oyunlarının qızıl medalçıları Nurlana Cəfərova və Fuad Qurbanov iştirak ediblər.

Qeyd edək ki, çempionat avqustun 14-dən 20-dək keçiriləcək, mötəbər yarışda "Paris-2024" Yay Olimpiya Oyunlarına 48 lisenziya uğrunda idmançılar mübarizə aparacaqlar.

***Onu da əlavə edək ki, bu günlərdə Bakı Atıcılıq Mərkəzində "Dünya Kuboku 2023" yarışlarına start verilib. Altı gün keçiriləcək yarışda dünyanın 66 ölkəsindən 623 idmançı qatılıb.***

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Biz onların keşiyindəyik



Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş xeyriyyə tədbirinin təhlükəsiz şəraitdə keçirilməsini **Nəsimi Rayon Mühafizə İdarəsinin** əməkdaşları təmin edib.

"Çapar" İnklüziv Terapiya Mərkəzinin təşkilatçılığı ilə keçirilən tədbirdə şəhid övladları və əngəlli uşaqlar iştirak edib. Uşaqları həmyaşıdları ilə bir araya gətirmək, müxtəlif idman növləri ilə tanış etmək, musiqi və rəqs nömrələri ilə əyləndirmək məqsədi ilə keçirilən bu nəcib aksiya iki gün çəkib. Tədbirdə fiziki qüsurlu uşaqların əl işləri və rəsm əsərləri də sərgilənib.

Nəsimi Rayon Mühafizə İdarəsinin əməkdaşlarına 70-dən çox uşağın iştirak etdiyi tədbirin təhlükəsizliyini yüksək səviyyədə təmin etdiklərinə görə təşkilatçılar tərəfindən təşəkkür edilib. İki gün ərzində uşaqların keşiyini çəkən həmkarlarımız, eyni zamanda, onların əyləncə proqramlarına qatılaraq sevinclərini bölüşüblər.

# Uşaqların yubiley töhfəsi





DİN Maddi-Texniki Təminat Baş İdarəsinin 2 saylı uşaq bağçasında ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr edilən "Yer kürəsi güllərlə gülümsəyir" adlı uşaq rəsm sərgisi keçirilib.

Sərgidəki rəsmlər DİN-in və müxtəlif bağçaların azyaşlıları arasında keçirilən müsabiqə çərçivəsində nümayiş olunub.

Bu münasibətlə keçirilən tədbirdə **2 saylı uşaq bağçasının müdiri Sevinc Məmmədəliyeva** ulu öndər Heydər Əliyevin uşaqlara daim diqqət və qayğı ilə yanaşdığını, uşaqları sonsuz məhəbbətlə sevən bir lider kimi yadda qaldığını vurğulayıb. Keçirilən bu müsabiqə və sərgi vasitəsi ilə uşaqların da ümummilli liderin xatirəsinə bəslədikləri təmiz duyğularını boyalarla əks etdirdiklərini qeyd edib.

**DİN Mətbuat Xidmətinin rəis müavini, polis polkovnik-leytenantı Hafiz Təmirov, Rəssamlıq Akademiyasının dossenti Hafiz Əmirxanov və Rəssamlar İttifaqının üzvü, Milli Xalça Muzeyinin aparıcı elmi işçisi Dilavər Kərimova** ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət uşaq siyasəti barədə danışıblar.

Çıxış edənlər ümummilli liderin dəfələrlə vurğuladığı kimi, müstəqil dövlətimizdə uşaqların yüksək mənəvi-əxlaqi mühitdə, milli dəyərlər əsasında kamil tərbiyə alaraq layiqli şəxsiyyət olaraq yetişməsində görülən işlərdən bəhs ediblər.

Sonda müsabiqədə 1-ci, 2-ci və 3-cü yerləri tutan azyaşlılar hədiyyələrlə mükafatlandırılıb, qalan iştirakçılar isə xatirə diplomları ilə təltif olunublar.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# Obyektiv, operativ və qərəzsiz

Sumqayıt ŞPİ-nin 1-ci Polis Bölməsinin əməkdaşları hüquq pozuntusunun qarşısını alıb.

Suallarımıza cavab olaraq bölmədən bildirilib ki, şəhər sakini Aytəkin Bayramova sosial şəbəkə platformasında təhqir olunması, eləcə də dələduzluğa məruz qalması ilə əlaqədar müraciət edib. Belə ki, şikayətçi "instaqram"da bir xanımın köhnə geyimlərə ehtiyacı olduğu paylaşımını gördükdən sonra ona şəxsi mesaj ünvanlayaraq kömək edə biləcəyini yazıb.



Onlar vatsap ani mesajlaşma vasitəsində razılaşaraq təyin etdikləri yerdə görüşüblər. Vətəndaş A.Bayramova həmin xanıma geyinmədiyi paltarlardan əlavə 20 manat da verib. Səhəri gün geyimlərin saytların birində satışa çıxarıldığını görən zərərçəkmiş digər şəhər sakini Aygün Səlimxanlıya zəng vuraraq verdiklərini geri istəyib. Bu zaman təhqirə məruz qaldığını iddia edib.

Qarşı tərəf isə izahatında şikayətçinin iddialarının əsassız olduğunu, heç bir nalayiq ifadələr işlətmədiyini yazıb.

Araşdırılma zamanı aralarındakı mübahisə qanunamüvafiq qaydada həll olunaraq hər iki tərəf qarşılıqlı razılaşma əsasında barışdırılıb.

*Teymur Əlizadə,*
*polis mayoru*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9860

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Çapa imzalanmışdır 16:30
Qiyməti 40 qəpik

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.